# Sözün və gücün verdiyi qürur!



**Dörd ildir ki, cəmiyyətimizin həyatı tamamilə dəyişib. İnsanlar dörd il əvvələ qədərkindən fərqli əhvali-ruhiyyə ilə yaşayırlar. Məgər azad və bütöv ölkənin vətəndaşı üçün xalqa inamını qaytaran, müzəffər ordunun və yenilməz sərkərdənin bəxç etdiyi Zəfərin qürurunu yaşamaqdan böyük fəxarət varmı?**

Nə gizlədək, Qarabağı itirdiyimiz 28 il müddətində hər birimiz içimizdə natamamlıq kompleksini, öləziməkdə olan ümid hissini yaşayırdıq. Torpağmızı işğal edəndən çox özümüzü qınayır, özümüzü günahlandırırdıq. Hər dəfə Qarabağdan söz düşəndə bir-birimizin gözünə dik baxa bilmirdik. Söhbətlərimizin təskinlik fonu ondan ibarət olurdu ki, biz müharibəni yox, savaşı uduzmuşuq. Həmin savaşda canlarını Vətənə fəda etmiş şəhidlərimizin ruhu bizi rahat buraxmır, qisas hissi qəhər kimi bizi boğurdu. Milyondan çox didərgin soydaşımızın acısını birlikdə yaşayırdıq. Özümüzə onunla təskinlik verirdik ki, işğalçı haylar Birinci Qarabağ savaşında tək olmayıblar, havadarının hesabına “qalib” gəliblər.

**(ardı 3-cü səhifədə)**

# Sözün və gücün verdiyi qürur!



(əvvəli 1-ci səhifədə)

Nəhayət, natamamlıq kompleksindən qurtulduq. İgidlərimizin qanı bahasına, amansız döyüşlə geri aldığımız Şuşa qalası, işğaldan azad olunan torpaqlarımızın hər qarışı bundan sonra bütün dünyanı, o cümlədən, erməniləri də məcbur edəcək ki, bizə saygı ilə yanaşsınlar. Bəli, zəfərlərin paradı ilə süslənən o günlər bütün şəhidlərimizin qisasının alındığı məqam idi. 44 günlük Vətən müharibəsinin gedişində cənab Prezident xalqımıza hər gün qələbə soraqlı xəbərlərlə müjdələr verdi. İlham Əliyev xalqa müraciətlərində əksər dövlət başçılarının bacarmadığı, cürət etmədiyi şəkildə xalqı ilə açıq və səmimi danışdı. Ali Baş Komandan qazandığımız hərbi uğurlarımıza haradan və kimlərdən siyasi təzyiqlərin, hətta təhdidlərin gəldiyini də canlı efirdə cəsarətlə söylədi. Bu mənzərə təkcə hərbi döyüş meydanında baş vermirdi. Ön cəbhədə olduğu kimi, informasiya cəbhəsində də “olum-ölüm” savaşı gedirdi. Bu cinahda həmişə güclü olmuş yağı düşmən mövqelərini təhvil verməyə məcbur edildi. “Böyük güclərİ” təmsil edən media qurumlarının əksəriyyəti işğalçı Ermənistana açıq şəkildə informasiya dəstəyi göstərməsinə baxmayaraq, sonda Prezident İlham Əliyevin zərgər dəqiqliyi ilə düşünülmüş informasiya diplomatiyasının qarşısında diz çökməyə məcbur oldu. Onlar yenə də ermənilərin əzabkeş, təqib olunan, guya, öz torpağından qovulan toplum obrazını formalaşdırmağa çalışırdı. Baxmayaraq ki, haqq-ədalət, beynəlxalq hüquq Azərbaycanın tərəfində idi. Ermənistanın “məğlubedilməz ordusunun” burnunu İlham Əliyevin memarı və sərkərdəsi olduğu müzəffər ordumuz necə ovurdusa, informasiya savaşında da Azərbaycan lideri rəqiblərini eyni ustalıq və siyasi iradə ilə yerlərində oturdurdu.

*

Daha biz şəhər və rayonlarımızın “işğal ildönümlərini” anmırıq, hər birimiz üçün qürurverici məqamlara çevrilən zəfərlərin yubileylərini bayram edirik. Bu təntənəli mərasimlər işğaldan azad edilmiş ərazilərimizdə keçirilir və Prezident İlham Əliyev həmin tribunalardan xalqına və dünyaya önəmli mesajlarını çatdırır. Torpaqlarımızın 30 ildən sonra tarixi sahibinə qovuşması, ölkəmizin həyatında yeni mərhələnin başlanması tariximizin zəfər səhifəsi kimi daim vərəqlənəcək, xalqımız hər zaman ölkə Prezidentinə, rəşadətli ordumuza minnətdarlığını ifadə edəcək. 2023-cü il oktyabrın 15-də, Prezident seçilməsinin 20-ci ildönümündə ilk dəfə Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda Azərbaycan Bayrağını ucaldan İlham Əliyev tariximizin Zəfər salnaməsinin qızıl səhifələrini daha da zənginləşdirdi. Məgər ümumxalq sevgisinin, Vətən daşı olmaq xoşbəxtliyinin başqa formulu varmı?

*44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik. Düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Vədə yetişdi, sərkərdə işarə verdi, bir anın içində bütün xalq ayağa qalxdı. Hamı Vətənin əsgərinə çevrilməyə hazır oldu. Mərd oğullarımızın yağı üstünə şığıyanda nərəsindən yer titrədi, düşmən pərən-pərən düşdü, fərariyə çevrildi. Xarabaya çevirdiyi kəndlərimizi, şəhərlərimizi qoyub qaçdılar. İşğalı 30 ilə yaxın sürən doğma torpaqlarımızın azad olunması üçün cəmi 44 gün kifayət elədi. Və artıq indi soydaşlarımızın qayıdışı ilə Vətənə çevrilən o torpaqlarda həyat qaynayır. Qarabağ murdar hayların ayaq izlərindən, bəd nəfəslərindən təmizlənir, arınır!

Otuz il xalqımız bütün bayramlarda, tarixi günlərdə bu arzunu ifadə edirdi: “Gün gələcək üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq”. Arzuları gerçəkliyə çevirən Prezident İlham Əliyevin Azərbaycan Bayrağını bu məkanlarda ucaldarkən keçirdiyi fəxarət hissi hər bir azərbaycanlını qürurlandırdı. Dövlətimizin başçısının Xankəndidən verdiyi bu mesajı isə bütün dünya eşitdi: “Mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən, Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın”.

*

Prezident İlham Əliyevin Azərbaycanın üçrəngli bayrağını Xankəndidə, Xocalıda 2023-cü ildə – məhz “Heydər Əliyev İli”ndə ucaltması ata vəsiyyətini qürurla gerçəkləşdirən övladın, xalqına verdiyi vədləri yerinə yetirən lider-sərkərdənin şücaət və qətiyyətinin təntənəsinə çevrildi. İkinci Qarabağ müharibəsindən on yeddi il əvvəl Prezident seçilən İlham Əliyev Azərbaycan xalqının və dövlətinin milli maraqlarını daim müdafiə edəcəyinə, ölkəmizin ərazi bütövlüyünü qoruyacağına söz vermişdi və sözünü tutdu. 2020-ci il sentyabrın 27-dən başlayaraq ordumuz kimi xalqımız da hər gün, hər saat öz müqəddəs məqsədinə doğru addımladı. Prezident kimi öz vəzifə borcunu yerinə yetirməyə başlayanda dövlət başçısı İlham Əliyevin qarşısına qoyduğu bir nömrəli vəzifə Azərbaycan Bayrağını işğal altında olan bütün ərazilərdə – şəhər və kəndlərimizdə ucaltmaq idi. Vaxt gəldi və üçrəngli bayrağımızın Azərbaycanın hər bölgəsində qaldırılmasından keçirdiyimiz qürurlu anların sevincini paylaşdıq. Həmin bayraq başımızı dik qaldıran qürurumuzun, kimliyimizin rəmzi və dünyaya ünvanlanan mesajımızdır.

“Bu torpaqlar bizimdir və burada əbədi olacağıq. Bu gün Xankəndinin mərkəzində, Azərbaycan Gerbi, Bayrağı altında olmaq böyük xoşbəxtlikdir və tarixi hadisədir. Bu Qələbə tariximizdə əbədi olacaq. Yeni nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər” – deyəndə müzəffər Ali Baş Komandanın gözlərinə baxmaqdan keçirdiyimiz qürur hissini nə əvəz edə bilər? Xalqımızın üç onillikdə ürəyində bəslədiyi arzuları çin oldu: torpaqlarımızı geri aldıq, ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdik. Bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qüdrətli, söz və güc sahibi olan bir ölkənin vətəndaşı olmaqdan qürur duyur.

İndi dönüb o şanlı günlərə nəzər salanda əmin oluruq ki, bizim apardığımız qurtuluş savaşı haqq işi uğrunda mübarizəmiz idi. İntəhası, Tanrı özü şahidlik edirdi ki, həmin savaşda biz yalnız mənfur və şərəfsiz erməni ilə qarşı-qarşıya gəlməmişdik. Avropanın xaçpərəst düşərgəsindən bir çoxlarını qarşımıza almışdıq. Onlar beynəlxalq hüquqa, ədalətə tüpürən işğalçının, hətta dinə-imana naxələf çıxan hayların yanında sıralanmışdılar. Azərbaycana təzyiqlər edir, ünvanımıza şər-böhtan yağdırırdılar. Doğrusu, Ermənistana aşkarda, gizlində dəstək verənlər bizim Qələbə qazanacağımızı gözləmirdilər. Bunu heç istəmirdilər də. Tariximizin 44 günlük qızıl səhifələri həm də ona görə önəmlidir ki, Ali Baş Komandan bütün təzyiq və təhdidlərə mərdliklə sinə gərdi, haqq-ədaləti ayaqlar altına atanlara onu gücün sayəsində necə bərpa edildiyini göstərdi və bununla da onların hamısını susdurdu!

Başını uca tut, Vətən! – deyəndə, ilk növbədə, İlahi ucalığa yetişmiş şəhidlərimizi anmalıyıq. Bu gün sözün və gücün verdiyi qüruru yaşayan biz yalnız şəhidlərimizin ruhu qarşısında baş əyirik!

***İmran BƏDİRXANLI***
***XQ***